Qisas qiyamətə qalmadı

Bir şahidin gördükləri, eşitdikləri və düşüncələri

Xocalı soyqırımından 30 il keçir. Hələ də bu qanlı faciənin üstü açılmayan, gizli qalmış məqamları çoxdur. Bir çox suallara hələ də cavab tapılmayıb. Hələ yüzlərlə insanın taleyindən heç bir soraq yoxdur. Xatırladaq ki, 7 minə yaxın əhalisi olan Xocalı Xankəndidən 10 km cənub-şərqdə, Qarabağ dağ silsiləsinin ətəyində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə aeroport da Xocalıdadır. Ermənilərin Xocalıya əsas maraqları da onun əlverişli strateji mövqeyə malik olması ilə əlaqədar idi.

Qanlı faciədən sonra, uzun illər boyu belə bir sual həmişə məni düşündürüb: Xocalını və xocalıluları xilas etmək mümkün idimi?! Mümkün idi, fəqət... Həmin vaxt respublikada ictimai-siyasi sabitlik ciddi şəkildə pozulmuş, hakimiyyət demək olar ki, tamamilə öz yerindən oynamış, prezident üsul-idarəsi iflic vəziyyətinə düşmüş, parçalanma, anarxiya, qanunların işləməməsi, ən əsası isə hakimiyyət uğrunda gedən çarpışmalar Qarabağda baş verən hadisələri daha da sürətləndirdi.

Hadisələrin şahidi kimi tam əminliklə deyə bilərəm ki, Xocalıda əhali tam köməksiz qalmışdı. Yalnız Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin başçılıq etdiyi "OMON"çular, yerli özünümüdafiə dəstəsi və yeni yaradılmış milli ordunun bir taqımı erməni hərbi birləşmələrinə qarşı qeyri - bərabər şəraitdə döyüşürdü. Xocalı erməni kəndlərinin əhatəsində qalsa da, Əsgəranla Xankəndi arasında məğrur dayanmışdı. Xocalıya görə ermənilər çox əlqol aça bilmirdilər. Dinc əhali isə bütün məhrumiyyətlərə dözürdü. Xocalı 1991-ci ilin əvvəllərindən hər tərəfdən mühasirəyə alınmışdı. Yollar tamam kəsilmiş, ümid hava yoluna qalmışdı. Onu da ermənilər hər vaxt atəşə tuta bilirdilər. Bir neçə helikopter və "AN-2" təyyarəsi ermənilər tərəfindən vurularaq məhv edilmişdi. Həmin illər ərzində Azərbaycan hökuməti tərəfindən Xocalının müdafiəsi üçün ciddi bir iş görülmədi. Və bütün rəhbərlər də açıq-aydın bilirdilər ki, Xocalı mühasirədədir.

O ağır vaxtlarda "Qarabağ" qəzetinin müxbiri kimi, həmkarlarımla birlikdə demək olar ki, günaşırı Xocalıda olurduq. Həyəcan dolu xəbərləri qəzetdə dərc edirdik. Həmin gərgin günlərdə öyrəndik ki, şəhər rəhbəri naməlum istiqamətə getmiş və sonra yenidən ora qayıtmış, o cümlədən milis şöbəsinin rəisi, prokuror, icra aparatının məsul işçiləri, idarə və müəssisələrin rəhbərləri və digər cavabdeh şəxslər Xocalını tərk etmişdilər. Orada yalnız şəhəri tərk edə bilməyən imkansız adamlar, xəstələr, uşaqlar qalmışdı. Açıq görünən nə idi?! Dinc və köməksiz insanların taleyi üzərində hakimiyyət uğrunda oyunlar gedirdi. Həm də Xocalıda öldürülənlərin və yaralananların statistikasına nəzər salanda bir daha aydın olur ki, onların arasında rəhbər işçilərdən bircə nəfər də yoxdur.

Yuxarıda qeyd etdiyim kimi, bu sətirlərin müəllifi Xocalı hadisələrinin canlı şahididir. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də enib. Şuşa səmasında mülki helikopterin vurulması, helikopterin içindəki 47 nəfər azərbaycanlının həlak olması ilə şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular.

1991-ci ilin sentyabrından 1992-ci il fevralın 25-nə qədər ermənilər Dağlıq Qarabağdakı bütün Azərbaycan kəndlərini oda qalayaraq boşaltdılar. Cəmi beş aya Qarabağın dağlıq hissəsindəki dədə-baba yurdlarından, İmarət-Qərvənddən, Kərkicahandan, Cəmillidən, Meşəlidən, Qaradağlıdan, Malıbəylidən, Quşçulardan, Kosalardan, Nəbilərdən, Xocalıdan və başqa kəndlərdən qovulan dinc əhalinin harayını respublikanın o vaxtkı rəhbərləri eşitmədilər. Xocalıda ermənilərin mühasirə halqası get-gedə daralırdı. 1992-ci il fevralın 25-i çox gərgin keçdi, Xocalıdan təzadlı xəbərlər gəlirdi, şayiələr yayılırdı. Onu da deyim ki, Xocalı ilə yeganə əlaqə Ağdam-Xocalı arasındakı rabitə əlaqəsi idi.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanıb. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli raketlərdən 2 saatlıq atəşdən sonra başlanıb. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olub. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləbarana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanik istiqamətində erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla öldürülmüşdür.

Lakin qisas qiyamətə qalmadı. 2020-ci ilin sentyabr ayında başlayan və 44 gün davam edən Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu işğalçı Ermənistanı məğlub edərək bütün şəhidlərimizin qisasını aldı və torpaqlarımızı düşmən tapdağından azad etdi.

Salman ALIOĞLU,
"Respublika".

Əsrin faciəsi

"... Xocalı soyqırımı dünyanın gözü qarşısında baş verdi. Bu, yaxın tarixin hadisəsidir. Ancaq bunu bir çox ölkələr görmək istəmirlər... sözdə "erməni soyqırımı"nı tanıyan, o saxta "soyqırımı" tanıyan ölkələr Xocalı soyqırımını tanımaq istəmirlər. Onlar saxta tarixi qəbul edirlər... Bu ədalətsizlikdir".

Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il avqustun 14-də "CNN Türk" televiziya kanalına müsahibəsində ermənilərin azərbaycanlılara qarşı törətdiyi qətliamlardan danışarkən söylədiyi fikirlər Ermənistana qarşı münasibətdə beynəlxalq hüququn tətbiq olunmamasını bir daha təsdiqləyir. Ermənilərin vəhşiliyi bir çox tarixi mənbələrdə də öz əksini tapır. Rus tədqiqatçısı-qafqazşünas V.Veliçko özünün məşhur "Qafqaz" əsərində 1860-1870-ci illərdə Azərbaycanda, daha dəqiq desək, Tərtərdə baş vermiş hadisələrlə bağlı yazır: "Yelizavetpol quberniyasının Tərtər kəndinin onlarca rus ailəsi vəhşicəsinə öz yerlərindən qovuldular. Bunu əsl vəhşiliklə yerinə yetirdilər. İlk olaraq rusların istifadə etdikləri bulağa gələn yolu kəsdilər. Susuz qalanlara isə çəlləklərdə çirkli, natəmiz su göndərirdilər. Qəsəbədə elə dəhşətli xəstəlik baş alıb getdi ki, fikirləşəndə insanın tükləri biz-biz olur.

Bu dəhşətli xəbər qubernatora çatdırıldı. Tərtərə erməni əsilli həkim göndərdilər. O isə öz növbəsində dərman vermək əvəzinə əzab çəkən ruslara bildirdi: "Rədd olun ruslar, rədd olun rus köpəkləri. Yoxsa, hamınız burada gəbərəcəksiniz". Əhalinin üçdə ikisi qırıldı, qalanları isə birtəhər baş götürüb qaçdı". Bəli, gəlmə ermənilər Azərbaycan torpağında fəsadlar törətmək silsiləsinə belə başladılar...

Erməni terrorçuları 1904-cü ilin sentyabrında Bakıda bir neçə azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Bu qətllər bir növ xəbərdarlıq niyyətilə edilmişdi. Həmin ilin dekabrında və 1905-ci ilin yanvarında erməni terrorçularının qətliamları daha da güclənmişdi.

Azərbaycan xalqının tarixində qanlı faciələrlə dolu hadisələr çox olmuşdur. Xarici ölkələrin qoşunları, qəddar hökmdarlar, sərkərdələr böyük ordu dəstələri ilə Azərbaycana hücum edərək torpaqlarımızı istila etmiş, zəbt olunmuş ərazilərdə vəhşiliklər törətmişdilər. Bunlarla da bir sırada erməni quldur dəstələrinin on illər boyunca azərbaycanlıların, bütün türk dünyasının başına gətirdiyi faciələr danışmaqla, yazmaqla bitməz.

Bu baxımdan 1905, 1915-ci illər kimi, 1918-ci ilin martı da türk dünyasının tarixində xüsusilə unudulmazdır. Mart qırğını kimi tarixə yazılan həmin qanlı hadisələrdə təkcə Bakıda 30 mindən çox dinc sakin qətlə yetirildi. Həmin vaxtlarda erməni vandalizmi özünün dəhşətli izlərini Azərbaycanın demək olar ki, bütün bölgələrində qoydu. Bu cəhətdən Şamaxı bölgəsində baş verənlər daha ürəkağrıdıcıdır. Şamaxı uezdinin Nəvahi, Qubadlı, Qaravəlli, Qonaqkənd, Quşçu, Ağabəyli, Kasad, Ərəbqədim, Cəyirli və digər kəndlərində erməni vəhşiliyinin qurbanı olanların sayı 10 minə yaxın idi.

Ermənilər bu qırğınları Türkiyənin bölgələrində də törədirdilər. Sonrakı illərdə erməni terrorçuları dünyanın hər bir yanında azərbaycanlıları qətlə yetirir, vəhşiliklərindən əl çəkmirdilər. 1985-ci il noyabrın 28-dən 1987-ci il fevralın 11-dək müxtəlif erməni terror təşkilatları əsasən, dörd ölkədə - Fransada, Livanda, Avstriyada, Yunanıstanda öz qara niyyətlərini həyata keçirirdilər. Bu ölkələrdə təşkil edilən qanlı olaylarda gənc türk vətəndaşları ilə bərabər, digər millətlərdən olan insanlar da terrorun qurbanı olurdular.

1987-ci ilin oktyabrında "Daşnaksütyun" beynəlxalq terror təşkilatının "Qarabağ" komitəsi təsis edilir. Komitənin ilk mitinqində liderlərdən İqor Muradyan və Levon Ter-Petrosyan çıxış edərək xalqı hazır olmağa çağırırlar: "Nə ölüm, nə zindan bizləri Qarabağı qaytarmaq arzusundan çəkindirməməlidir!".

Bu çıxışdan bir neçə gün sonra Mixail Qorbaçov ABŞ-a səfərə gedir. Orada "Daşnaksütyun" təşkilatının nümayəndələri ilə görüşür. 1921-ci ildən bəri Ermənistana buraxılması qadağan edilən "Daşnaksütyun" partiyası həmin görüşdən dərhal sonra Yerevanda öz mərkəzi ofisini açmağa müvəffəq olur. 1988-ci ilin fevralında "Qarabağ" komitəsi Xankəndidə "Krunk" adlı şöbəsini yaradır. Bundan sonra erməni separatçıları hərəkətə keçir. Dağlıq Qarabağda Əsgəran rayonunun 16 və 23 yaşlı iki gənci qətlə yetirilir. Bu, ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımının növbəti mərhələsində bizim ilk qurbanlarımız idi...

Sumqayıt hadisələrinin icraçıları da, təşkilatçıları da erməni terrorçuları idi. Ermənistandan soydaşlarımızın kütləvi şəkildə qovulması 1988-ci ilin sonunda tamamlandı. Ermənilərin "türksüz Ermənistan" arzuları reallaşdı. Azərbaycanlıların milli-azadlıq mübarizəsi isə gücləndirdi. Azərbaycan xalqının başına gətirilən dəhşətli hadisələrin baş ideoloqu olan Mixail Qorbaçovun Bakıya qoşun yeritməsi, qanlı Yanvar faciəsi də bu milləti milli-azadlıq mübarizəsindən çəkindirmək, qorxutmaq üçün törədilmişdi. İrəlidə isə bizi böyük faciələr gözləyirdi.

Sonrakı mərhələlərdə torpaqlarımızın 20 faizini, yəni Dağlıq Qarabağı və ətraf yaşayış bölgələrini itirdik. Xocalını itirməklə isə mənəviyyatımız, mənliyimiz, varlığımız tapdandı. Çox aşağılandıq. O vaxtlar anladıq ki, sərkərdəsiz, yiyəsiz-kimsəsizik...

Bu, o vaxtlar idi, illər sonra Vətən müharibəsindəki qələbə mənliyimizi də, qürurumuzu da özümüzə qaytardı.

1992-ci ilin qışına qayıdaq. 26 fevral - Xocalı. Bu tarixi yəqin ki, nəsillər dalınca gələn nəsillər də unutmayacaq. Xocalı soyqırımı məhz həmin qarlı, şaxtalı qış gecəsində törədilmişdi...

Xocalıdakı qanlı cinayət XX əsrdə dinc əhaliyə qarşı beynəlxalq terrorizmin həyata keçirdiyi ən dəhşətli aksiyalar cərgəsindədir. Soydaşlarımızın kütləvi qırğını fevralın 25-dən 26-na keçən gecə baş verdi.

Xocalı soyqırımını bütün dünya mətbuatı təsdiqlədi, ABŞ-da "ilin ən möhtəşəm faciəsi" kimi səciyyələndirildi. "Vaşinqton post", "Tayms", "İzvestiya", "La Mond", "Finansia Times" və digər nüfuzlu mətbuat orqanları Xocalı soyqırımını, erməni faşizminin qəddarlığını, cinayətkarlığını, varvarlığını canlı şahidlərin gözü ilə təsvir etdilər. Ancaq nə fayda? Məsələ öz həllini tapmadı, qatillər cəzalandırılmadı...

Cəzasız qalan erməni caniləri daha irəli getdilər. Torpaqlarımızı 30 il işğal altında saxladılar, şəhərləri, kəndləri viran qoydular, heysiyyatımızla oynadılar. Ancaq tarixi ədalət deyilən bir şey var. Bu xalq sınmadı, gözlədi, qisas gününü düz 30 il gözlədi. Qana qan deyib milləti bir bayraq altında birləşdirməyə, onu "silaha!" əmri ilə bir sıraya düzməyə qadir olan sərkərdəsini gözlədi. 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə göyə qalxan "dəmir yumruq" düşmənin başını əzdi, tökülən qanlar yerdə qalmadı. Xocalı-qan yaddaşımız. Dünya onu tanımır, qoy tanımasın, öyrəşmişik dünyanın ədalətsizliklərinə. Biz ki, qisasımızı almışıq...

Zümrüd QURBANQIZI,
"Respublika".

Bəşəriyyətə qarşı törədilmiş cinayət

Xocalı Ağdam-Şuşa yolu üzərində Əsgəranla Xankəndi arasında mühüm yaşayış məntəqələrindən biri idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücuma keçdi və dinc əhaliyə misli görünməmiş qəddarlıq etdi.

Ümummilli lider Heydər Əliyev Xocalı faciəsi haqqında demişdir: "Bütölükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağılagəlməz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Azərbaycanın Milli Qəhrəmanı Ələsgər Novruzovun həyat yoldaşı Şəkibə Mustafayeva: 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları Rusiya ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının köməyi ilə Xocalıya hücum edəndə mən üç azyaşlı övladımla birlikdə evdə idim. Həmin vaxt həyat yoldaşım Ələsgər postda olduğu üçün evdə yox idi. Bizimlə bir məhəllədə yaşayan qocalar, qız-gəlinlər və uşaqlar evimizin zirzəmisinə toplaşdılar. Heç kim öz yurdunu tərk etmək istəmirdi. Ancaq biz düşmən əlinə keçməyək deyə, gecənin qaranlığında öz evimizi tərk etməyə məcbur olduq.

Hər tərəf ağappaq örpəyə bürünmüşdü. Biz Qarqarçayı çox çətinliklə keçib meşəyə girdik. Mən üç uşağımı çox çətinliklə aparırdım. Onlar xeyli yorulmuş və hərəkət edə bilmirdilər. Ermənilərin qəflətən açdığı atəş hamını pərən-pərən saldı. Ağappaq qarın üstü bir anın içində qıpqırmızı insan qanına boyandı. Erməni quldurları qocalara, uşaqlara, südəmər körpələrə, hətta, hamilə qadınlara belə rəhm etmədən dinc əhaliyə qarşı misli görünməmiş cinayət aktı törətdilər. Bir gecənin içində yurd-yuvamız dağıldı, yaxınlarımızı və doğmalarımızı itirdik. Mən üç övladımla birlikdə çox çətinliklə gəlib Ağdamın Şelli kəndinə çatdıq.

Həyat yoldaşım həmin gecə səhərə qədər erməni quldurları ilə döyüşmüş və tutduqları mövqedən bir addım da olsun geri çəkilməmişdilər. Lakin düşmən gülləsi Ələsgərin həyatına son qoydu. Onu doğulub boya-başa çatdığı Laçın rayonunun Kürdhacılı kəndində dəfn etdilər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli fərmanı ilə Novruzov Ələsgər Xanlar oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Mən üç övladımla Bakı şəhərində məskunlaşdım. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğı nəticəsində övladlarımı böyütdüm. Oğlum Ülvü, qızlarım Vüsalə və Piyalə hər üçü ailə qurublar. Nəvəm babası Ələsgərin adını yaşadır. Arzum budur ki, balaca Ələsgər atalı-analı böyüsün, xalqına və dövlətinə layiqli övlad olsun.

Xocalı şəhər sakini Dürdanə Ağayeva: 12 yanvar 1972-ci ildə Xocalı şəhərində anadan olmuşam. 13 yaşım olanda atam Xankəndidə yerləşən xəstəxanada erməni həkimi tərəfindən ürək əməliyyatı olundu və bir gün sonra vəfat etdi. Mən 1988-ci ildə orta məktəbi bitirdikdən sonra əvvəlcə tikiş fabrikində, sonra isə Xocalı Poçtunun telefon zəngləri bölməsində işlədim. 17 sentyabr 1988-ci ildə erməni daşnakları Əsgəran rayonunun mərkəzindən keçən Ağdam-Şuşa avtobuslarını daşa tutdular. 1990-cı ilin əvvəllərində ermənilər mitinq keçirməyə başladı və hər yerə "Qarabağ Ermənistandır" yazılmış plakatlar asdılar. 1990-cı ilin payızında həm kiçik müdafiə dəstələri, həm də polis tərəfindən yaradılmış qruplar Əlif Hacıyevin briqadasında birləşdi. 1 noyabr 1990-cı il tarixində erməni quldurları Xocalının bütün yollarını bağladı və şəhər tamamilə blokadaya alındı.

Vəziyyət gündən-günə pisləşir, əhali çətin günlər yaşayırdı. Ermənilər şəhərin elektrik xəttini də kəsdilər. Xocalıda vəziyyət daha da ağırlaşdı və aclıq başladı. Ermənilər gecələr "Alazan" raketləri, iriçaplı pulemyotlarla şəhəri atəşə tuturdular. Qadın, uşaq və qocalar zirzəmilərdə gizlənir və özlərini qorumağa çalışırdılar. Xocalı müdafiə briqadasının komandiri Tofiq Hüseynov, Əlif Hacıyev, Xocalının sabiq icra başçısı Elman Məmmədov tez-tez stansiyaya gəlir və böyük həyəcanla Ağdama və Bakıya zəng edib, kömək istəyirdilər. Ancaq onlara yalan vəd verilərək, "Möhkəm durun, kömək və silah göndərəcəyik", - deyirdilər.

Xocalı əhalisi böyük səbirsizliklə kömək gözləyirdi. Nəhayət, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni faşistləri Xocalı şəhərinə beş istiqamətdən hücuma keçdilər. Gecə saat 01:30 radələrində şəhər əhalisi doğma yurdlarını tərk edib, Ağdam istiqamətinə yola düşdülər. Qışın şaxtalı bir günündə Qarqarçayı keçib meşəyə üz tutduq. Orada adamların bir neçəsi soyuqdan donaraq öldü. Şaxta adamları əldən salsa da, onlar özlərində dözüm və qüvvə toplayaraq gedirdi.

Səhərin açılmasına az qalmışdı. İçimdə müdhiş bir qorxu var idi. Qarşıda bizi böyük fəlakətin gözlədiyini hiss edirdim. Birdən qəfil atəş səsləri eşidildi, güllələr yağış kimi üstümüzə yağdı. Hamı pərən-pərən düşdü. Bir anın içində ağappaq qar qıpqırmızı qana boyandı. Erməni quldurları qocalara, cavanlara, uşaqlara, südəmər körpələrə, hətta hamilə qadınlara rəhm etmədən dinc əhaliyə qarşı misli görünməmiş cinayət törətdilər.

Xocalı şəhər sakini Sahib İmani: Tarixin bütün dövrlərində Azərbaycan xalqına düşmən olan mənfur erməni daşnakları 1988-ci il fevralın 12-də Dağlıq Qarabağda torpaq iddiası ilə mitinq keçirdilər. SSRİ rəhbərliyinin dəstəyi ilə güclənən erməni quldurları 1992-ci il fevralın 25-dən 26-na keçən gecə öz çirkin niyyətlərini həyata keçirmək üçün ağır texnika və sovet ordusunun ən müasir silahları ilə Xocalı şəhərinə hücum etdilər. Şəhər əhalisi doğma yurdu tərk edib, Ağdam istiqamətində irəlilədilər. Şaxtalı gecədə Qarqarçayı keçib meşəyə üz tutduq. Çox çətinliklə gedərək Naxçıvanik kəndinin yaxınlığına çatdıq.

Erməni quldurları yüksəklikdə dayanıb Xocalı camaatını gözləyirdi. Onlar əhalini mühasirəyə alıb, güllələyirdilər. Atam Ağayar, qardaşım Malik, qohumum Murad, onun Aysel və Gülmirə adlı iki qızı erməni quldurları tərəfindən qətlə yetirildi. Təsadüf nəticəsində mən sağ qaldım. Qardaşım Malikin həyat yoldaşı Sonanı 12 gündən sonra çox ağır vəziyyətdə meşədən tapdılar. Onu Bakı şəhərində yerləşən xəstəxanaların birinə apardılar. Sonanın ayaqlarını şaxta vurduğu üçün barmaqlarını kəsdilər. Bu faciə qəlbimizə vurulmuş ən ağır yaradır.

Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür. 44 gün ərzində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq, şəhidlərimizin qisasını aldı və torpaqlarımızı işğaldan azad etdi.

Kamil İSMAYIL,
"Respublika".

XALQIMIZIN QAN YADDAŞI

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbçiləri 7 min nəfər əhalisi olan Xocalı şəhərinə od vurub yandırdılar, heç kimə aman vermədən dinc əhalini kütləvi şəkildə məhv etdilər, qəddarlıqla amansız qırğınlar törətdilər. İyirminci yüzilliyin ən amansız cinayətlərindən biri olan Xocalı faciəsi bəşər tarixində analoqu olmayan dəhşətli soyqırımı idi.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə azğınlaşmış erməni silahlı cəlladları keçmiş SSRİ-yə məxsus olan, o dövrdə Xankəndidə yerləşən və tərkibi erməni zabitlərindən, hərbçilərindən ibarət olan 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə 5 istiqamətdən hücum etdilər və dəhşətli cinayət aktı törətdilər. Vəhşiləşmiş erməni cinayətkarları şəhəri yerlə-yeksan edərək yüzlərlə köməksiz və günahsız insanı amansızcasına qətlə yetirdilər, uşaqlara, qocalara, xəstələrə, hamilə qadınlara belə aman vermədilər. Ermənilər qanlı cinayətləri ilə bəşər tarixində növbəti vandalizm aktını - Xocalı soyqırımını törətdilər.

Ulu Öndər hər il Xocalı soyqırımının ildönümü ilə bağlı keçirilən tədbirlərdə iştirak edərək öz çıxışlarında bu faciənin Azərbaycan xalqının iradəsini qıra bilmədiyini bildirmişdir. Hələ 1995-ci ildə Xocalı soyqırımının 3-cü ildönümü zamanı Heydər Əliyev demişdir: "... Xocalı faciəsinin nə qədər dəhşətli faciə olduğunu və Azərbaycan xalqına nə qədər böyük zərbə vurduğunu bir daha dərk edirik... Xalqımız çoxəsrlik tarixində belə bəlalardan çox keçibdir. Ancaq heç vaxt başımızı aşağı salmamalıyıq, gücümüzü toplamalıyıq. Azərbaycan xalqının haqq işi qələbə çalacaq. Azərbaycan xalqı bütün ərazisinin sahibi olacaq...".

Bütünlükdə Azərbaycan xalqının məhvinə yönəldilmiş Xocalı müsibəti ermənimillətçilərinin məqsədyönlü soyqırımı siyasətinin davamıdır. Etnik təmizləmə siyasəti aparan erməni millətçi-şovinistləri zaman-zaman Azərbaycan xalqına qarşı amansız olmuş, dəhşətli qırğınlar törədərək bu torpaqları ələ keçirməyə çalışmış, "böyük Ermənistan" yaratmağa ciddi cəhdlər etmişlər. Ermənistanda yaşayan azərbaycanlıları tamamilə və zorakılıqla didərgin salandan sonra Azərbaycan torpaqlarının işğalına başlayan ermənilər ərazimizin 20 faizini zəbt etdilər, 1 milyondan çox həmyerlimizi məcburi qaçqına, köçkünə və didərginə çevirdilər.

O dövrdə Azərbaycanda güclü ordu və vahid komandanlığın olmaması ağır və faciəli nəticələrə səbəb oldu. Ayrı-ayrı könüllü hərbi birləşmələrimiz isə düşmənin hərbi texnika ilə güclü hücumlarına duruş gətirə bilmir, cəbhə bölgələrində ağır məğlubiyyətlərə uğrayır və bir-birinin ardınca kəndlərimiz və strateji məntəqələrimiz ermənilər tərəfindən işğal olunurdu. 1991-ci ilin oktyabrından 1992-ci ilin yanvarınadək Xocalı rayonunun Cəmilli, Meşəli kəndləri, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Ağdam rayonunun Qərvənt kəndi, Xocavənd rayonunun Xocavənd və Tuğ kəndləri, keçmiş Hadrut rayonunun Axullu, Salakətin kəndləri, Goranboy rayonunun Ballıqaya və Başqışlaq kəndləri ermənilər tərəfindən işğal edilmiş, yandırılmış və məhv edilmişdi. 1992-ci il yanvarın 25-26-da uğursuz Daşaltı əməliyyatı Azərbaycan ordusunda vahid komandanlığın olmadığını göstərmişdir.

Xocalı soyqırımına ümummilli lider Heydər Əliyevin fəal təşəbbüsü və diqqəti sayəsində hüquqi-siyasi qiymət verildi və 1994-cü il fevralın 24-də Milli Məclisdə Xocalı soyqırımı ilə bağlı qərar və bəyanat qəbul edildi və dünya parlamentlərinə, beynəlxalq təşkilatlara göndərildi. Ulu Öndərin apardığı uğurlu xarici siyasət diplomatiyasını çox böyük müvəffəqiyyətlə davam və inkişaf etdirən Prezident İlham Əliyev tərəfindən Azərbaycanın xeyrinə bir çox beynəlxalq əhəmiyyətli sənədlərin qəbul edilməsinə nail olundu.

Bu gün Xocalı soyqırımı dünyanın bir sıra ölkələrində qeyd olunur. Türkiyə Böyük Millət Məclisinin xüsusi iclaslarında Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur. Qardaş Türkiyə parlamentinin üzvləri erməni silahlı dəstələrinin Xocalıda mülki əhaliyə qarşı törətdikləri cinayətləri görünməmiş vəhşilik kimi qiymətləndirmiş, erməni cəlladlarının qanlı əməllərini pisləmiş və bunun Azərbaycan xalqına qarşı soyqırımı olduğunu qəbul etmişlər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil edilmiş "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Xocalı həqiqətləri haqqında sənədli filmlər sistemli şəkildə müntəzəm olaraq dünya ölkələrində nümayiş etdirilir.

Xocalı soyqırımından 30 il ötsə də, erməni vandalları tərəfindən amansızcasına, tarixdə analoqu olmayan qətliama məruz qalmış soydaşlarımızın qanı yerdə qalmadı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Komandanlığı, polad iradəsi və qətiyyəti ilə cəmi 44 gün çəkən Vətən müharibəsində rəşadətli Ordumuz və qəhrəman zabit və əsgərlərimizin şücaəti sayəsində işğalda olan torpaqlarımız azad olundu. 30 ilə yaxın müddət ərzində ərazilərimizi, doğma yurd yerlərimizi işğal altında saxlayan erməni ordusu tamamilə darmadağın edildi, şəhid olmuş qəhrəmanlarımızın, Xocalıda qətlə yetirilmiş ana və bacılarımızın, körpə uşaqlarımızın və digər günahsız soydaşlarımızın qisası alındı. Azərbaycan torpaqları öz əzəli və əbədi sahiblərinə qaytarıldı.

Əli SADIQOV,
"Respublika".